STAD
SANAL TÜRKOLOJİ
ARAŞTIRMALARI DERGİSİ

# ZƏNGƏZURUN TÜRK MƏNŞƏLİ TOPONİMLƏRİNİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

**Əzəmət Murtuza RÜSTƏMOV** *

**Özet**

Məqalədə Zəngəzur ərazisinin türk mənşəli toponimləri təhlil olunur. Qeyd olinmuşdur ki, çoxlu miqdarda toponimlər türk tayfalarının adları ilə bağlıdır. Bu ərazidə mövcud olan hidrotoponim, etnotoponim, zootoponimlər qədim türk tayfalarının adları ilə bağlıdır.

**Anahtar Sözcükler**:
Zəngəzur, toponim, linqvistika, türk, etnotoponim

**Abstract**

The linguistics features of toponyms of Zangazur territory are analysed in this article. It should be mentioned that the majority of these toponyms were created on the basis of names of Turkish tribes.

**Key Words**:
Zangazur, Turkish, toponyms, ethnotoponyms, linguistics

Tarixi Azərbaycan torpağı olan Zəngəzur ərazisinin (Ermənistanın Kafan, Gorus və Sisyan, Meğri rayonları və Azərbaycanın Qubadlı, Zəngilan və Laçın rayonlarının) Azərbaycan-türk mənşəli toponimləri və onların müxtəlif qruplarının etnolinqvistik və struktur baxımından araşdırılması və öyrənilməsi elmi əhəmiyyət kəsb etməklə yanaşı, ictimai-siyasi və mənəvi mahiyyət daşıyır. Zəngəzur ərazisinin türk mənşəli toponimlərinin tədqiq edilməsi aşağıdakı elmi nəticələri qeyd etməyə imkan verir.

1. Zəngəzur bölgəsinin türk mənşəli toponimlərinin (oykonim, oronim, hidronim, zoonim və mikrotoponimlərinin) elmi şəkildə öyrənilməsi aydın şəkildə göstərir ki, bu ərazinin aborigen sakinləri türklər olmuşdur. Digər etnoslar (haylar, kürdlər, ruslar, tatlar, ərəblər) bu əraziyə müxtəlif ictimai-tarixi şəraitdə gəlmişdir. Ermənilərin bu əraziyə İran və Türkiyədən kütləvi gəlişlərinin 200-300 ilə qədər yaşı var. Ermənilər (haylar) 1828-ci il Türkmənçay müqaviləsindən sonra bütövlükdə Qərbi Azərbaycana (indiki Ermənistan Respublikasına), o cümlədən Zəngəzur ərazisinə axın etmiş, ərazinin etnoqrafik tərkibində çox olmasa da, qismən dəyişiklik etmişlər. 1727-ci ilin Osmanlılar tərəfindən siyahıya almaya

* Sumqayıt Dövlət Universiteti Azərbaycan dili və dilçilik kafedrasının müdiri, chinare.hesenova@mail.ru

əsasən Zəngəzurun etnik tərkibi belə idi: 23981 nəfər azərbaycanlı, 7425 nəfər isə erməni yaşamışdı.

2. Tarixi Zəngəzur ərazisinin toponimləri ilk dəfədir ki, tarixi-linqvistik-müqayisə baxımından geniş şəkildə tədqiqata cəlb olunmuş, bölgənin toponimləri sistemli şəkildə tədqiq olunmuşdur.

3. Zəngəzur zonasının etnotoponimlərinin etnolinqvistik təhlili göstərdi ki, bu ərazidə ümumtürk və Azərbaycan mənşəli etnotoponimlər müəyyən bir lay təşkil edir. Məsələn: Uz, Çəpni, Bayandur, Ağvanlı, Suvarı, Gomaran, Hunan, Hunanlı, Kuman, Muğancıq (6), Quşçulu, Afşarlı, Xələc (2), Baharlı (2), Çullu, Qaçaran, Çavındır, Gorus, Sisakan (Sisyan), Qapan, Xotanan, Biçənək, Gögərcik (Göyərcik), Qazançı, Dondar, Yeməkli, Zəngənə, Yaycı, Qayı, Abdal, Qaraqoyunlu, Şıxlar, Alpout, Otuzikilər, Ulaşlı (2) və s. Həm də etnotoponimlər toponimlərin müxtəlif məna qruplarında özünü göstərir. Məsələn:

a) Oronim – Xustup//Oğuz təpə, Qanlı bel//Qazbel;

b) Zoonim – Quşçular, Qurdqala, Axtaxana, Atqız, Ördəkli, Keçili, Bozdoğan, Qaraqoyunlu və s.

c) Hidronim – Bazarçay, Bərguşad çay, Oxçu çay etnohidronimlərin əksəriyyəti türk etnoslarının adı ilə bağlıdır.

4. Bu etnotoponimlərin əksəriyyəti Azərbaycan dili və xalqının mənşəyində bilavasitə iştirak etmiş etnosların adları ilə bağlıdır. Tarixi Azərbaycan torpağı olan Zəngəzurda mövcud olan qeyd etdiyimiz etnotoponimlər uyğun olaraq türk mənşəli Uz, Çəpni, Bayandur, Ağvan, Suvarı, Gomaran, Hunan, Kuman, Muğan, Quşçu, Avşarlı, Xələc, Gorus, Qapan, Xotan, Biçənək, Gögər, Dondar, Yaycı, Qayı, Zəngənə, Yeməkli, Qaraqoyunlu, Otuzikilər, Ulaşlı və s. etnoslarının yaşamasının aydın göstəricisidir. Bu etnoslar türk şəcərəsinin nüvəsini əks etdirir.

5. Toponimlərin etnolinqvistik təhlili göstərdi ki, onomastik kateqoriyalar arasında daim keçid olur. Antroponimlərdən etnonimlərə və buradan da toponimlərə keçid daimi xarakterə malikdir. Bu, araşdırılan ərazinin toponimiyasında da özünü göstərdi. Məsələn: Qazan – antroponim, Qazan – etnonim, Qazançı, Qazan göl toponimi, Çəpni, Ulaşlı, Bayandur, Oxçu, Dondar, Biçənək və s. bu qəbildəndir.

6. Zəngəzur zonasının hidronimlərinin təhlili göstərdi ki, tədqiq olunan ərazidə hidronimlərin əksəriyyəti, əsasən, Azərbaycan mənşəlidir. Görünür, hidro¬nimlərin daha çox mühafizəkar olması onların dəyişdirilməsinə imkan verməmişdir. Məsələn, Uz çayı, Bərguşad çayı, Basat çayı, Çavındır çayı, Qazan gölü, Həkəri çayı, Bazarçay (Ermənilər bunu Vorotan çayı adlandırmışlar), Ağvan çayı, Cəhənnəm dərəsi, Quş bulaq, Göy bulaq, Ağ bulaq, Qotur su. Belə bir faktı da qeyd edək ki, zonanın hidrotoponimlərinin əmələ gəlməsində iştirak edən nomenklatur terminlər də Azərbaycan-türk mənşəlidir. Təsadüfi deyil ki, S.P.Zelinskinin XIX əsrin sonunda tədqiq etdiyi mənbədə hidrotoponimlər Azərbaycan dilinə məxsusdur. Məsələn, göl, çay, su, dərə, bulaq, selav və s. Erməni mənşəli hidrotermin mənbələrdə də yoxdur.

7. Zəngəzurun toponimiyasında "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı çoxsaylı toponim, antropotoponim və etnonim adlarına rast gəlirik. Bu tipli coğrafi adlar Oğuz qrupuna daxil olan dillərin toponimiyasında da mövcuddur. Məsələn: Qazançı, Ulaşlı, Basut çay, Dondarlı, Oxçu, Oxçuçay, Xustup (Oğuz təpə), Bayandur (2) və s. Bu tipli coğrafi adlar təsadüfi olmayıb, Dədə Qorqudun Zəngəzur bölgəsində nişanəsidir.

8. Zəngəzurun coğrafi adlarının tədqiqi göstərdi ki, bu toponimlər çox qədim tarixə malikdir və Azərbaycan xalqının dili və mənşəyindən xəbər verir. Azərbaycan xalqının əsas və birbaşa mənbəyi sayılan M.Kalankaytuklunun "Alban

tarixi" əsərində əks olunan bir çox onomastik vahidlər (etnos, antroponim və toponimlər) hal-hazırda da Zəngəzur toponimiyasında qalmaqdadır. Məsələn: Ağvanlı, Qoros, Hunan, Qunnanlı, Biçənək, Qor, Şəki, Bəzli Ağcakənd, Qazan, Sünik, Sisakan, Hot, Salat və s.

9. XI əsr türk dillərinin ən möhtəşəm abidəsi olan M.Kaşğarinin "Divani lüğat-it-türk" əsərində və XIV əsrdə yaşayıb-yaratmış F.Rəşidəddinin "Oğuznamə" əsərində adları qeyd olunan etnoslar, etnotoponimlər və arxaik leksikanın bəzi dil elementləri vardır ki, bu da Zəngəzurun toponimiyasında özünün izini qoruyub saxlamışdır. Məsələn: Tatar, Bayandır, Biçənək//Peçeneq, Çəpni, Xotan, Göyərcik, Çavındır, Qayalı, Avşar, Xalac (3), Baharlı (2), Göyərabbas, Yeməkli, Talas, Kavşud, Balık, Türklər, Çaruklu, Kapan, Qanlı bel, Suvar və s.

10. Ümumazərbaycan toponimiyasında olduğu kimi, Zəngəzur toponimiyasında mövcud olan oykonimlər qədim türk sözləri (balıq, art, bək, alp, bayır, kömür, tap, tas, yazı, mac, top, tey, qat), dialekt sözlər (qəcəl, qılınc, qıy, gab, selav), Azərbaycan dilinə məxsus (kənd, oba, tuğ, düz, güney, quzey, körpü, pəyə, qala, dərə, qaya, qışlaq, xırman, xış), o cmlədən başqa dillərdən (ərəb, fars) keçib Azərbaycan dilində toponim yaratma prosesində iştirak edən sözlər (qala, zeyvə, Məzrə, abad, şəhər və s.) əsasında formalaşmışdır.

11. Zəngəzurun ərazisində mövcud olan müxtəlif tipli toponimlərin tərkibində iştirak edən topoterminlərin əksəriyyəti Azərbaycan-türk mənşəlidir və müasir dilimizdə işlənir. Bu tipli topoterminlər danılmaz fakt kimi S.P.Zelinskinin siyahısında demək olar ki, öz əksini tapmışdır. Məsələn: dağ, kənd, dərə, oba, çay, bulaq, selav, kol, yoxuş, yaylaq, qışlaq, pəyə, qala, yer, yataq, qıy, qaya, daş, təpə, göl, yurd, çəmən, tala, göl, su və s.

12. Zonanın Azərbaycan mənşəli toponimlərinin tədqiqi göstərdi ki, etnotoponimlər Azərbaycan, ümumən türk mənşəli toponimlərlə areal xarakterə malikdir. Muğancıq, Xalac, Şıxlar, Bayandur, Baharlı, Hunan, Suvarı, Uz, Çullu, Biçənək, Çəpni, Afşarlı, Gomaran, Xotan və s. Bu coğrafi adların hər biri türk dilli xalqların yaşadığı ərazidə də mövcuddur.

13. Zəngəzur ərazisi dağlıq relyefə malik olduğu üçün onun toponimiyası da rəngarəng və zəngindir. Zəngəzurun oronimlər sistemi demək olar ki, yekcinsdir – yəni türk mənşəli dil vahidlərindən ibarətdir. Ərazinin oronimləri türk mənşəli etnosların adı ilə (qanlı, kəpəz, qayı, qazan, dondar, qorus//qoroz, qapan və s.), qədim türk sözləri ilə (balıq, yazı, oba, daş, taş, tap), müsbət relyef (təpə, yal, dik, bək, qıy, yoxuş, güney, bel), mənfi relyef (dərə, çala, düz, çuxur) bildirən sözlər, eyni zamanda metaforik sözlərdən (bel, qaş, barmaq, burun, baş, göz) əmələ gəlmişdir.

14. Zəngəzur ərazisinin mikrotoponimlərinin əksəriyyəti Azərbaycan dilinin qrammatik quruluşu əsasında formalaşmışdır. Bu adlar S.P.Zelinskinin tərtib etdiyi siyahıda da belədir. Məsələn: Vəli düzü, Çay zəmi, Əsgər çiməni, Gəlin qaya, Üç ağac, Qum qazılan yer, Üç təpə, Qara qaya və s.

15. Zonanın toponimlər sistemi xeyli dərəcədə coğrafi məzmuna malik olduğu üçün onların əsasında ərazinin relyef quruluşu, mənzərə xüsusiyyətləri, təbii sərvətləri, bitki örtüyü, təbii xüsusiyyətləri haqqında müəyyən qənaətə gəlmək mümkündür. Belə ki, zonanın ərazisinin dağlıq relyefə malik olması onun topo¬nimiyasında da relyef formalarını (dağ, dərə, təpə, qaya, daş və s.) əks etdirən zəngin və rəngarəng makro və mikrotoponimlərin əmələ gəlməsini şərtləndirmişdir.

16. Zəngəzurun Azərbaycan mənşəli toponimik vahidlərinin linqvistik təhlilindən belə bir tezis irəli sürə bilərik ki, Azərbaycan-türk dilinə məxsus leksik-vahidlərin – etnotoponimlərin adlarına M.Kaşğari "Divan"ında və xalqımızın

möhtəşəm abidəsi "Kitabi-Dədə Qorqud" da rast gəlirik. Məsələn: Çəpni, Bayandır, Çavındır, Biçənək, Xustup (Oğuz təpə), Uz, Qazan dağ, Qazançı, Oxçu çayı, Basut//Basat çayı, Avşarlı, Açağu (İç Oğuz), Dondarlı, Ulaşlı, Baharlı, Qayalı, Yeməkli, Əgərək//Həyərək, Qazlıq dağı və s. Maraqlıdır ki, Göyxanın oğlanlarının hər birinin adı zonanın toponimiyasında öz əksini tapmışdır (Çəpni, Bayandur, Biçənək, Çavındır).

Belarus tədqiqatçısı V.A.Yuçkeviçin "...erməni mənşəli olmayan adlar Ermənistanda azdır. Ermənistan toponimik cəhətdən SSRİ-nin ən yekcins hissəsidir" tezisinin tam əksini deyirik: Ermənistanda, o cümlədən Zəngəzur ərazisində türk mənşəli olmayan coğrafi adlar tək-təkdir. Bu ərazi türk mənşəli toponimlərin ən sıx yayıldığı ərazidir.

17. Zonanın Azərbaycan mənşəli toponimiyasını quruluşuna görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Leksik üsulla yarananlar (Tas, Dağ, Mac, Şam);

2) Semantik üsulla əmələ gələn toponimlər (Ulu bulaq, Ağbulaq, Qaraçimən, Qara qaya, Ağ qaya, Qara göl və s.);

3) Morfoloji yolla yaranmış toponimik vahidlər (Çullu, Çobanlı, Muğancıq, Qızılcıq, Şıxlar, Seyidlər, Şahverdilər, Çanaxçı, Quşçu, Hunud, Qovşud, Xotanan, Qacaran, Hunan, Axtaxana, Karxana, Almalıq və s.);

4) Zonanın toponimiyasında –an2 şəkilçili toponimlər üstünlük təşkil edir. Məsələn: Qacaran, Qapan, Gomaran//Qəməran, Xotanan, Muğanlı, Muğancıq, Qazançı, Kuman, Hunan, Şərifan, Fərəcan, Qazıyan və s. Bu tipli toponimlər daha çox qədim türk tayfalarının adı ilə bağlıdır. Bu şəkilçinin mənşəyini, fikrimizcə, başqa dillərdə axtarmaq düzgün deyil. Bu sıradan Muğan tayfasının adı ilə bağlı etnonimlər Zəngəzur ərazisində areallıq təşkil edir. Belə ki, Zəngilan rayonu ərazisində Muğanlı (2), Gorus rayonu ərazisində Muğancıq, Laçın rayonu ərazisində Muğanlı və Mığıdərə, Ermənistan ərazisində Mığrı//Meğri adlı toponimlər qədim türk tayfalarından olan mağ//muğ//mığ tayfalarının Zəngəzur ərazisində qədimdən məskunlaşdığının və aborigen tayfa olduğunun göstəricisidir.

18. Zəngəzur toponimlərinin (oykonim, oronim, antro¬ponim, etnotoponim, orotopotoponim, hidrotoponim, fitotoponim, zootoponim, təsviri-metaforik toponim müxtəlif tiplərinə rast gəldik.

19. Nəhayət, Zəngəzurun (Gorus, Qafan, Sisyan, Meğri, Qubadlı, Zəngilan, Laçın rayonlarının) ərazisindəki Azərbaycan-türk mənşəli toponimik vahidlərinin etnolinqvistik təhlili göstərdi ki, bu ərazidə türkdilli xalqların əksəriyyətinin formalaşmasında bilavasitə iştirak edən müxtəlif etnosların adları ilə bağlı onlarca toponimlər mövcuddur. Bu toponimik vahidlərin obyektiv dil qanunları əsasında tədqiq olunması külli miqdarda topoformantların, müxtəlif derivatoloji formaların, zəngin semantikanın, arxaik leksikanın aşkar edilməsinə səbəb olur və Azərbaycan toponimik sisteminin, eləcə də ümumtürk toponimlərinin areal sisteminin ümumi mənzərəsini daha aydın təsəvvür etməyə imkan verir. Eyni zamanda Zəngəzur zonasının bütün makro və mikrotoponimləri, onların məna növləri tam toplanmalı, təhlil olunmalı, toponimik lüğəti tərtib olunmalı və gələcək nəsillərə çatdırılmalıdır.

**KAYNAKÇA**

Axundov A.A. Torpağın köksündə tarixin izləri. Bakı, "Gənclik", 1983, 183 səh.

Bayramov A.Ə. "Dədə Qorqud" kitabında adlar və Qafqaz arealında onların toponimləşməsi. Bakı, 2010, avtoreferat, 37 səh.

Budaqov B., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. "Natta Press", Bakı, 1998, 452 səh.
Qurbanov A.M. Azərbaycan dilinin onomologiyası. Bakı, "Maarif", 1988, 505 səh.
Faruq Sümər. Oğuzlar. Bakı, 1992, 432 səh.
Fəzlullah Rəşidəddin. Oğuznamə. Bakı, Azərnəşr, 71 səh.
Rüstəmov Ə.M. Ermənistan SSR Qafan, Gorus və Sisyan rayonları ərazisinin Azərbaycan mənşəli toponimləri (nam.dis.). Bakı, 1990, 158 səh.
Rüstəmov Ə. Zəngəzurun Türk mənşəli toponimləri və onun Türkiyə paralelləri. SDU-nun elmi xəbərləri, Sumqayıt, №2, 2009, 39-43 səh.